


İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ
KOMMUNİKASİYA MƏRKƏZİ

# İXRAC İCMALI

Fevral - 2018

**AZEXPORT.AZ**
**Made in Azerbaijan**

# "2018-ci il sürətli inkişaf ili olacaq və ondan sonrakı bütün illərə çox güclü təkan verəcək"



## Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Yeni Azərbaycan Partiyasının (YAP) VI qurultayındakı nitqindən

"Bütün planlarımızı həyata keçirmək üçün iqtisadiyyatımızı gücləndirməliyik. Növbəti illərdə bu istiqamətdə əlavə addımlar atılacaq. Deyə bilərəm ki, son iki il ərzində çox ciddi iqtisadi islahatlar aparılmışdır. Əvvəlki illərdə də aparılmışdır. Ancaq son iki il ərzində daha fəal və daha səmərəli islahatlar aparılmışdır. Bu islahatlar imkan verdi ki, biz ağır vəziyyətdən, neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi nəticəsində yaranmış vəziyyətdən çıxa bilək və çıxmışıq da. Bu gün ölkə iqtisadiyyatı öz templərini artırır. Növbəti illərdə islahatlar mütləq davam etdiriləcəkdir. İndi bəzi suallar səslənir və hətta beynəlxalq ekspertlər maraqlanırlar ki, indi neftin qiyməti bir qədər qalxıbdır, bəs bu, apardığımız islahatlara təsir edəcək, ya etməyəcək? Bəlkə siz indi islahatları o qədər fəallıqla aparmayacaqsınız. Qətiyyən belə deyil. Mən bir daha demək istəyirəm ki, neftin qiymətinin artması, sadəcə olaraq, bizim valyuta ehtiyatlarımızı artıracaq. Ancaq bütün hökumət qurumları elə işləməlidirlər ki, sanki bizdə neft amili yoxdur. Ona görə biz gələcək iqtisadi inkişafımızı qeyri-neft sektorunun inkişafında görürük. Neft sektoru, sadəcə olaraq, bizə əlavə maliyyə resursu yaradacaq ki, bu da öz növbəsində, bizim siyasi resurslarımızı da gücləndirir. Bu da təbiidir. Ölkə iqtisadiyyatının dayanıqlı inkişafını ancaq bu amillər - qeyri-neft sektoru, sahibkarlıq, idarəetmədə aparılan və aparılacaq islahatlar müəyyən edəcək. Ona görə iqtisadiyyatın şaxələndirilməsi, mütərəqqi beynəlxalq təcrübənin Azərbaycana gətirilməsi, maliyyə, fiskal siyasətində ən qabaqcıl texnologiyalardan istifadə etməyimiz inkişafımız üçün əsas amillər olacaqdır. Deyə bilərəm ki, bu siyasət artıq öz nəticəsini vermişdir. Keçən ilin iqtisadi göstəriciləri göstərdi və sübut etdi ki, biz düzgün yoldayıq. İqtisadiyyatın qeyri-neft sektoru 2,7 faiz, sənayedə qeyri-neft sektoru 3,7 faiz, kənd təsərrüfatı 4,1 faiz, valyuta ehtiyatlarımız 4,5 milyard dollar artmışdır. Bu ilin yanvar ayının nəticələri də mənə məruzə edildi. Bu barədə də demək istəyirəm. Bu, göstərir ki, mən əvvəlki aylarda dediyim kimi, 2018-ci il sürətli inkişaf ili olacaqdır. Beləliklə, yanvar ayında Azərbaycanda ümumi daxili məhsul 2 faiz, qeyri-neft iqtisadiyyatımız təxminən 4 faiz, sənaye istehsalı 1,5 faiz, qeyri-neft sektorunda sənaye istehsalı 8,7 faiz artıb. İnflyasiya birinci ayda 5,5 faizdir, əhalinin pul gəlirləri 11 faizdən çoxdur. Yəni, əhalinin gəlirləri inflyasiyanı iki dəfə üstələyir. Bu ilin yanvar ayında bizim valyuta ehtiyatlarımız 2 milyard dollar artıb və bu gün valyuta ehtiyatlarımız 44 milyard dollar səviyyəsindədir. Bu, hələ ilin əvvəlidir. Mən əminəm ki, 2018-ci il sürətli inkişaf ili olacaq və ondan sonrakı bütün illərə çox güclü təkan verəcək. Kənd təsərrüfatında, sənaye sahəsində indi həyata keçirilən layihələr tezliklə, bir-iki il ərzində öz bəhrəsini verəcəkdir".

# MÜNDƏRİCAT


1 2018-ci ilin yanvar ayında qeyri-neft sektoru üzrə 123 milyon ABŞ dolları dəyərində ixrac olmuşdur ______ 4 səhifə

2 Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ______ 7 səhifə

3 2018-ci ilin yanvar ayında "Azərkosmos" ASC 423 min ABŞ dolları dəyərində xidmət ixrac etmişdir ______ 9 səhifə

4 Azexport.az portalına 2018-ci ilin yanvar ayında 81.5 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur ______ 11 səhifə

5 Dünyada ilk dəfə Azərbaycanda onlayn vahid ixrac ərizəsinin tətbiqinə başlanılmışdır ______ 14 səhifə

6 "Prodexpo 2018" Beynəlxalq Ərzaq Sərgisində Azərbaycan məhsulları maraqla qarşılanmışdır ______ 16 səhifə

7 Kənd Təsərrüfatı Nazirliyi dünya bazarlarına soğan ixracı ilə bağlı araşdırma aparmışdır ______ 20 səhifə

# Qeyri-neft sektoru üzrə ixraca dair məlumat

## 2018-ci ilin yanvar ayında qeyri-neft sektoru üzrə 123 milyon ABŞ dolları dəyərində ixrac olmuşdur

2018-ci ilin yanvar ayı ərzində qeyri-neft sektoru üzrə ixrac 123 milyon ABŞ dolları təşkil etmişdir. 2017-cı ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar ayında qeyri-neft sektoru üzrə ixrac 1/3 həcmdə artmışdır. Dövlət Statistika Komitəsinin məlumatına əsasən cari ilin yanvar ayı ərzində ən çox qeyri-neft məhsullarımız Rusiya Federasiyasına ixrac edilmişdir. Belə ki, yanvar ayı ərzində Rusiyaya 36.8 milyon, Türkiyəyə 23 milyon, İsveçrəyə 17.9 milyon, Gürcüstana 11.3 milyon və Çinə 4.4 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunmuşdur.

2018-ci ilin yanvar ayı ərzində ixrac olunan qeyri-neft sektoru məhsulları arasında qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda) birinci yerdə qərarlaşmışdır (17 milyon ABŞ dolları). Bu siyahıda ikinci yeri xurma (13 milyon ABŞ dolları), üçüncü yeri isə xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen (9.7 milyon ABŞ dolları) tutmuşdur.

Həmçinin yanvar ayında qabığı təmizlənmiş meşə fındığı ixracı 9 milyon, pomidor (tomat) ixracı 7.9 milyon, pambıq lifi ixracı 6.5 milyon, emal olunmamış alüminium ərintiləri ixracı 4.5 milyon, yer və tunelqazan maşınların hissələri ixracı 3.9 milyon, alüminium ərintilərindən qalınlığı 0,2 mm-dən çox olan düzbucaqlı plitələr, vərəqlər, zolaqlar ixracı 3.7 milyon, alma ixracı 3.2 milyon, daş kömür qatranının yüksək temperaturlu qovulmanın digər yağları və məhsulları ixracı 3 milyon, doymamış propen (propilen) ixracı 2.6 milyon, elektrik enerjisi ixracı 2.6 milyon, mis və sink əsaslı ərintilərdən çubuqlar və profillər ixracı 2.3 milyon, qara

### 2018-ci ilin yanvar ayı ərzində qeyri-neft sektoru üzrə 5 əsas ixrac ölkəsi




**Mənbə:** *DSK*

# Ötən ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin yanvar ayında qeyri-neft sektoru üzrə ixrac 1/3 həcmdə artmışdır

metallardan neft-qaz buruqlarının qazılması üçün qaynaq yeri olmayan digər nasos-kompressor boruları ixracı 1.9 milyon, orta damarcığı qismən və ya tamamilə çıxarılmış tütün ixracı 1.4 milyon, kimyəvi toxuculuq materiallarından böyük tutumlu elastik keçid konteynerləri ixracı 1.2 milyon, radionaviqasiya aparatları ixracı 1.1 milyon, qara metallardan xarici diametri 406,4 mm-dən çox olan digər qaynaq edilmiş borular ixracı 1.1 milyon, aşqarlanmamış alüminiumdan qalınlığı 0,2 mm-dən çox olan düzbucaqlı plitələr, vərəqlər, zolaqlar ixracı 1 milyon ABŞ dolları təşkil etmişdir.

Ümumiyyətlə isə yanvar ayı ərzində meyvə-tərəvəz ixracı 35 milyon, plastmassa və onlardan hazırlanan məmulatların ixracı 10 milyon, alüminium və ondan hazırlanan məmulatların ixracı 9 milyon, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 5 milyon, kimya sənayesi məhsullarının ixracı 3.6 milyon ABŞ dolları olmuşdur.

Qeyd edək ki, 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin yanvar ayında elektrik enerjisinin ixracı 86 faiz, meyvə-tərəvəzin ixracı 45 faiz, kimya sənayesi məhsullarının ixracı 36 faiz, pambıq ixracı 20 faiz artmışdır.

2018-ci ilin yanvar ayı ərzində əsas ixrac ölkələri və ixrac olunan malların siyahısı barədə daha ətraflı məlumat təqdim olunan infoqrammalarda verilmişdir.

## 2017-ci ilin yanvar ayına nisbətən 2018-ci ilin yanvar ayında qeyri-neft sektoruna aid bəzi malların ixracının artımı



# 2018-ci ilin yanvar ayında qeyri-neft sektoru üzrə ixrac olunan əsas malların siyahısı (milyon ABŞ dolları ilə)

- 17.2 Qızıl
- 13.4 Xurma
- 9.7 İlkin formalı polietilen
- 9 Fındıq ləpəsi
- 7.9 Tomat (Pomidor)
- 6.5 Pambıq lifi
- 4.5 Emal olunmamış alüminium ərintiləri
- 3.9 Yer və tunelqazan maşınların hissələri
- 3.7 Alüminium ərintilərindən plitələr
- 3.2 Alma
- 3 Digər yağlar və yağ məhsulları
- 2.6 Doymamış propen
- 2.6 Elektrik enerjisi
- 2.3 Mis və sink əsaslı ərintilərdən çubuqla
- 1.9 Nasos-kompressor boruları
- 1.4 Tütün
- 1.2 Elastik keçid konteynerləri
- 1.1 Radionaviqasiya aparatları
- 1.1 Digər borular
- 1 Aşqarlanmamış alüminiumdan plitələr



**Mənbə:** *DSK*

# 2018-ci ilin yanvar ayında qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi

2018-ci ilin yanvar ayında qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən subyektlərin reytinqi tərtib olunmuşdur. Nəticədə qeyri-neft sektoru üzrə qeyri-dövlət ixracatçı şirkətlərin və fiziki şəxslərin siyahısında ilk onluqda "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "Aqrodoctor" MMC, "MKT İstehsalat Kommersiya" MMC, "Qlaf Drillinq Saplay FZE" şirkətinin Azərbaycan Respublikasındakı Filialı, "CTS-Agro" MMC, "Baku Steel Company" MMC, "Azagroeksport 2017" MMC, "Food export Şəmkir" MMC, "Ram Beynəlxalq Nəqliyyat və Ticarət LTD" MMC və "İlham-M" MMC təmsil olunmuşdur.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısında isə 8 şirkət təmsil olunur.

## Qeyri-neft sektoru üzrə ilk onluqda təmsil olunan qeyri-dövlət ixracatçı subyektlərin reytinqi



# 2018-ci ilin yanvar ayında qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi

Bu siyahıda adı olan və 100 min ABŞ dollarından çox ixrac edən şirkətlər aşağıdakılardır: ARDNŞ-in “Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi”, “Det-al Alüminium” MMC, “Azergold” QSC, “Azərenerji” ASC, “Azərbaycan Hava Yolları” QSC, “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC, “Ərzaq Məhsullarının Tədarükü və Təchizatı” ASC, “Suraxanı Maşınqayırma Zavodu Törəmə” ASC .

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrammalardan tanış ola bilərsiniz.

## Qeyri-neft sektoru üzrə ilk onluqda təmsil olunan dövlətə məxsus ixracatçı subyektlərin reytinqi




**Mənbə:** *DGK*

## 2018-ci ilin yanvar ayında "Azərkosmos" ASC 423 min ABŞ dolları dəyərində xidmət ixrac etmişdir

2018-ci ilin yanvar ayında "Azərkosmos" ASC tərəfindən dünyanın 15 ölkəsinə peyk telekommunikasiya xidmətləri ixrac edilmişdir. Cari ilin ilk ayında "Azərkosmos" ASC peyk telekommunikasiya xidmətlərinin (Azerspace-1) ixracından 423 min ABŞ dolları məbləğində gəlir əldə etmişdir. "Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 59 faizini təşkil etmişdir.

Qeyd edək ki, "Azərkosmos" ASC-nin 2018-ci ilin yanvar ayında xidmət ixracı həyata keçirdiyi əsas ölkələr BƏƏ, Almaniya, Misir, Gürcüstan, Çin, Qırğızıstan, Kipr, CAR, Birləşmiş Krallıq, Ukrayna və digərləridir.

## 2018-ci ilin yanvar ayında "Azərkosmos" ASC-nin xidmət ixracı

**"AZƏRKOSMOS"** ASC 2018-ci ilin yanvar ayında **423 min** ABŞ dolları məbləğində xidmət ixracı həyata keçirmişdir.






### XİDMƏT İXRACI HƏYATA KEÇİRİLƏN ÖLKƏLƏR:

| | | |
|---|---|---|
| BƏƏ | Qırğızıstan | Rusiya |
| Almaniya | Kipr | Türkiyə |
| Misir | CAR | Tanzaniya |
| Gürcüstan | Birləşmiş Krallıq | Livan |
| Çin | Ukrayna | Polşa |

**Mənbə:** *"Azərkosmos" ASC*

# 2017-ci ildə xarici vətəndaşlar Azərbaycanda bank kartları vasitəsi ilə 1 milyard 22 milyon manatlıq əməliyyat aparmışlar

## Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatlar (manatla)




2017-ci ildə Azərbaycana gələn turistlərin sayında baş verən artım həm də, onların ölkəmizdəki xərcləmələrində özünü biruzə vermişdir. Belə ki, 2016-cı illə müqayisədə 2017-ci ildə Azərbaycana gələn xarici vətəndaşların aylar üzrə bank kartları vasitəsi ilə apardıqları əməliyyatların dəyəri 70 faiz artaraq 1 milyard 22 milyon manat təşkil etmişdir.

Onu da qeyd edək ki, 2018-ci ilin yanvar ayı ərzində də turizm sahəsində artım qeydə alınmışdır. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2018-ci ilin yanvar ayı ərzində Azərbaycana dünyanın 138 ölkəsindən 186,2 min və ya ötən ilin eyni ayı ilə müqayisədə 16,4 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir. Gələnlərin 30,7 faizi Rusiya Federasiyası, 24,5 faizi Gürcüstan, 13,0 faizi Türkiyə, 7,2 faizi İran, 4,4 faizi Birləşmiş Ərəb Əmirlikləri, 2,2 faizi Ukrayna, 1,7 faizi İraq, 16,2 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olmuşdur. Gələnlərin 70,0 faizini kişilər, 30,0 faizini isə qadınlar təşkil etmişdir.

İran istisna olunmaqla, Körfəz ölkələrindən gələnlərin sayında daha çox artım müşahidə edilmişdir.

Ötən ilin yanvar ayı ilə müqayisədə ölkəmizə gələn Küveyt vətəndaşlarının sayı 6,4 dəfə, Bəhreyn vətəndaşlarının sayı 2,9 dəfə, Qətər vətəndaşlarının sayı 2,7 dəfə, Səudiyyə Ərəbistanı vətəndaşlarının sayı 2,6 dəfə, Oman vətəndaşlarının sayı 2,1 dəfə, Birləşmiş Ərəb Əmirlikləri vətəndaşlarının sayı 1,5 dəfə, İraq vətəndaşlarının sayı 1,5 dəfə artmışdır. İrandan gələnlərin sayında 5,3 faiz azalma müşahidə edilmişdir. Körfəz ölkələrindən gələnlərin ümumi sayı 35,2 faiz artaraq 32,9 min nəfər olmuşdur.

2018-ci ilin yanvar ayında Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 7,0 faiz azalaraq 5,8 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 6,9 faiz artaraq 67,3 min nəfər olmuşdur.

# 2018-ci ilin yanvar ayında Azexport.az portalına 81.5 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur

## Portala daxil olan ixrac sifarişlərinin ümumi dəyəri isə 556.5 milyon ABŞ dolları təşkil etmişdir

2018-ci ilin yanvar ayı ərzində Azexport.az portalına 81.5 milyon ABŞ dolları məbləğində ixrac sifarişləri daxil olmuşdur. Ümumilikdə isə 2017-ci ilin 01 yanvar tarixindən 2018-ci ilin 31 yanvar tarixinə kimi Azexport.az portalına dünyanın 78 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri 556.6 milyon ABŞ dolları isə təşkil etmişdir.

2018-ci ilin yanvar ayında portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində Rusiya (22 %), Türkiyə (8%), Ukrayna (8%), Səudiyyə Ərəbistanı (6%) və Birləşmiş Ərəb Əmirlikləri (6%) qərarlaşmışdır. Cari ilin yanvar ayında Banqladeş, Malayziya, Sloveniya və Finlandiya kimi ölkələrdən portala ilk dəfə sifarişlər daxil olmuşdur.

Daxil olan sifarişləri məhsullar üzrə təhlil etdikdə məlum olub ki, cari ilin yanvar ayında ən çox ixrac sifarişi şərab, çay, fındıq ləpəsi, pomidor şirəsi, nar, nar konsentratı və almaya olmuşdur. Həmçinin lobya, toyuq yumurtası, dekorativ güllər, kosmetik vasitələr, quru süd, dekorativ qurğular, qənnadı məhsulları, meyvə cemi, biyan kökü, mebel dəsti, mühərrik yağı, velosiped, pambıq yağı, boya məhsulları, pambıq toxumu (çiyid), kərpici və s. mallara da sifariş daxil olmuşdur.

Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə daha dolğun məlumat isə təqdim olunan infoqrammalarda verilmişdir.

## Azexport.az portalına daxil olan ixrac sifarişlərinin məbləği




**Mənbə:** *Azexport.az*

## 2018-ci ilin yanvar ayında Azexport.az portalından ixrac sifarişi alan əsas mallar




**Mənbə:** *Azexport.az*

## 2018-ci ilin yanvar ayında Azexport.az portalına daxil olan ixrac sifarişlərinin ölkələr üzrə bölgüsü (%)




Mənbə: *Azexport.az*

## Sahibkarlara vahid ixrac ərizəsi ilə bağlı təlim keçirilmişdir

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində (İİTKM) sahibkarlara vahid ixrac ərizəsinin doldurulması qaydalarının izah olunması üçün təlimlərə start verilmişdir. İlk təlimdə Azərbaycan Sahibkarlar Konfederasiyası, Azərbaycan Nar İstehsalçıları və İxracatçıları Assosiasiyasının nümayəndələri iştirak etmişdirlər. “Azexport.az” portalının rəhbəri Zaur Qardaşov sahibkarlara dəstək istiqamətində aparılan iqtisadi islahatlar və ixraca mövcud dəstək mexanizmləri barədə geniş danışmışdır. O əlavə edib ki, onlayn vahid ixrac ərizəsi sahibkarların ixrac üçün işini asanlaşdıracaq. Xüsusən də respublikanın bölgələrində yerləşən sahibkarlar üçün icazələrin alınması proseduru daha rahat olacaq. Həm də sistemin işə salınması ixrac prosedurlarının icrasında məmur sahibkar təmasını minimuma endirəcək.

Daha sonra “Azexport.az” portalının meneceri Ayxan Qədəşov sahibkarlara onlayn vahid ixrac ərizəsinin doldurulması qaydalarını izah etmişdir. Təlimdə İİTKM-in Strateji planlaşdırma və inkişaf departamentinin rəhbəri Ramil Hüseyn və “Bir Pəncərə” İxraca Dəstək Mərkəzinin meneceri Nicat Hacızadə iştirak etmiş və sahibkarların müvafiq suallarını cavablandırmışlar.



# Dünyada ilk dəfə Azərbaycanda onlayn vahid ixrac ərizəsinin tətbiqinə başlanılmışdır

Dünyada ilk dəfə Azərbaycanda onlayn vahid ixrac ərizəsi təqdim olunmuşdur. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) bu yeni xidməti Rəqəmsal Ticarət Qovşağı və "Azexport.az" portalı vasitəsilə həyata keçirəcək. Beləliklə, sahibkarlar vahid ixrac ərizəsini onlayn qaydada doldurmaqla məhsullarını daha asan ixrac edə biləcəklər.

Məlumat üçün bildirək ki, ixracda tələb olunan icazələrin, ixrac gömrük bəyannaməsinin və ixrac təşviqinin vahid elektron ərizə əsasında verilməsi Prezident İlham Əliyevin "Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanında nəzərdə tutulmuşdur.

Yeni elektron xidmət, sahibkarların ixrac etdikləri məhsulları onlayn vahid ərizə əsasında müraciət etməklə ixrac üçün tələb olunan bütün icazə sənədlərinin əldə edilməsi, o cümlədən, elektron gömrük bəyannaməsinin doldurulması və ixrac təşviqi məbləğinin alınmasını özündə birləşdirir.

Vahid ixrac ərizəsininin doldurulması sistemi intellektual məntiqə əsaslanaraq qurulmuşdur. Yəni istifadəçi özü haqqında minimal məlumatları daxil edir. Sahibkar bu məlumatları yalnız bir dəfə daxil etməklə (məsələn: malın adı və ixrac ölkəsi) digər zəruri məlumatlar, o cümlədən idxal ölkəsi üçün tələb olunan sənədlər sistem tərəfindən avtomatik müəyyən edilir və ərizəçiyə təqdim edilir. Sonrakı mərhələdə ərizəçinin razılığı əsasında elektron vahid ixrac ərizəsi formalaşır və tələb olunan icazələrin alınması üçün sistem tərəfindən müəyyən edilmiş iştirakçılara (dövlət qurumlarına) ünvanlanır.

Qeyd edək ki, sistemin işə salınması ixrac prosedurlarının icrasında məmur sahibkar təmasını minimuma endirəcək və sənədlərin icra müddəti bir neçə dəfə azalacaq. Bundan əlavə, respublikanın bölgələrində yerləşən sahibkarlar üçün icazələrin alınması proseduru daha rahat olacaq. Vahid ərizə konsepsiyası əsasında bütün ixrac icazələrinin əldə edilməsi xidməti hazırda dünyanın heç bir ölkəsində təqdim edilmir.

Vahid ixrac ərizəsi ilə tanış olmaq üçün sahibkarlar https://dth.azexport.az/ ünvanına müraciət edə bilərlər.






# Çində Azərbaycanın ticarət nümayəndəliyinin ofisi açılmışdır



Cari ilin fevral ayının 5-də Çinin Pekin şəhərində Azərbaycanın Ticarət Nümayəndəliyinin ofisinin rəsmi açılışı olmuşdur. Bununla bağlı keçirilmiş mərasimdə İqtisadiyyat naziri Şahin Mustafayevin rəhbərliyi ilə Çində səfərdə olan Azərbaycan nümayəndə heyəti və Çin rəsmiləri iştirak etmişlər.

Tədbirdə nazir Şahin Mustafayev Azərbaycan-Çin iqtisadi əlaqələrinin inkişaf etdiyini, Çinin ölkəmizin əsas ticarət tərəfdaşlarından olduğunu və 2017-ci ildə ölkələrimiz arasında ticarət dövriyyəsinin 1,2 mlrd. ABŞ dolları olmaqla, 43% artdığını vurğulamışdır. Çin Azərbaycanın ticarət tərəfdaşları sırasında ticarət dövriyyəsinə görə 4-cü, ixracda 8-ci, idxalda isə 3-cü ölkədir. Azərbaycanda Çin kapitallı 100-dən çox şirkət fəaliyyət göstərir, bu şirkətlər müxtəlif layihələrdə uğurla iştirak edirlər. Ölkəmiz Çin Xalq Respublikası ilə investisiya sahəsində də uğurlu əməkdaşlıq edir. 2016-cı və 2017-ci illərdə Çinə 3 ixrac missiyası təşkil edilib, Azərbaycan məhsulları Çində keçirilmiş 2 sərgidə "Made in Azerbaijan" vahid ölkə stendi ilə nümayiş olunmuşdur. Azərbaycan cari ildə Çində keçiriləcək daha 3 sərgidə iştirak edəcək. İndiyədək Azərbaycan və Çin iş adamlarının iştirakı ilə 8 biznes forum keçirilmişdir.

Hazırda Şanxay Beynəlxalq Ticarət Əməliyyat Mərkəzində "Azərbaycan Şərab Evi"nin açılmasına dair danışıqlar aparılır. Bununla belə, Azərbaycan-Çin iqtisadi əlaqələrinin genişləndirilməsi üçün potensial böyükdür.

Nazir Şahin Mustafayev qeyd etmişdir ki, Pekində Azərbaycanın Çindəki Ticarət Nümayəndəliyinin ofisinin açılması ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələrinin inkişafında önəmli olacaqdır. Bildirilmişdir ki, nümayəndəlik ölkəmizin qeyri-neft ixracının genişləndirilməsi, "Made in Azerbaijan" brendinin, əlverişli biznes və investisiya mühitinin təşviqi və Çin investisiyalarının cəlb olunması, habelə Azərbaycan şirkətlərinin Çində iqtisadi maraqlarının qorunması və müxtəlif məsələlərlə bağlı Azərbaycan sahibkarlarına dəstək göstərilməsi baxımından əhəmiyyətlidir.

Sonra tədbir iştirakçıları Azərbaycan Ticarət Nümayəndəliyinin ofisi ilə tanış olublar.

Qeyd: Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 26 yanvar tarixli "Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarında ticarət nümayəndələrinin təyin edilməsi haqqında" Fərmanına uyğun olaraq, ötən il Azərbaycanın Çində Ticarət Nümayəndəliyi yaradılmış və Teymur Nadiroğlu ölkəmizin Çin Xalq Respublikasında ticarət nümayəndəsi təyin edilmişdir.

Ümumiyyətlə, Azərbaycanın Çin Xalq Respublikası ilə yanaşı, Rusiya Federasiyası, Birləşmiş Ərəb Əmirlikləri və Mərkəzi Avropa ölkələri üzrə ticarət nümayəndələri fəaliyyət göstərir.



# "Prodexpo 2018" Beynəlxalq Ərzaq Sərgisində Azərbaycan məhsulları maraqla qarşılanmışdır




2018-ci il 05-09 fevral tarixlərində Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində "Prodexpo 2018" Beynəlxalq Ərzaq Sərgisi keçirilmişdir. Sərgidə dünyanın 65 ölkəsindən 2000-dən çox şirkətin məhsulları nümayiş olunmuşdur.

"Prodexpo 2018" Beynəlxalq Ərzaq Sərgisinin Azərbaycana aid pavilyonunda ölkəmizdə istehsal edilən meyvə şirələri, müxtəlif növ şərablar və təbii mineral sular, fındıq, qənnadı məmulatları, çay, quru meyvə və s. məhsullar vahid ölkə stendi ilə ziyarətçilərinə təqdim edilmişdir.

Sərginin açılışında iştirakçı ölkələrin nümayəndə heyətləri, həmçinin Rusiyanın Kənd Təsərrüfatı nazirinin müavini Yevgeni Qromıko Azərbaycan pavilyonunu ziyarət etmiş, məhsullarımızın keyfiyyəti, ixrac potensialı ilə maraqlanmışdır.

Sərginin ilk günündə Azərbaycanın "Tac" şirkəti Rusiya bazarına "Gülüstan" limonad və mineral sularının ixracına dair müqavilə imzalamışdır. Bundan başqa, Azərbaycan şirkətlərinin istehsal etdiyi şərab, qurudulmuş xurma, günəbaxan yağı, sərinləşdirici içkilər və s. məhsulların sərgidə iştirak edən Çin, Qazaxıstan, İsrail, Tayvan və Səudiyyə Ərəbistanına ixracına dair danışıqlar aparılmışdır.

Həmçinin "Prodexpo 2018" Beynəlxalq Ərzaq Sərgisində Azərbaycanın 4 şirkəti Rusiya Federasiyasının Kənd Təsərrüfatı Nazirliyi tərəfindən "İlin ən yaxşı məhsulu 2018" nominasiyası üzrə qızıl medallara layiq görülmuşdür. Belə ki, Azərbaycanın "Ayan" MMC şirkəti mineral çeşmə suyuna və alkoqolsuz içkiyə, "Bal xurma" şirkəti quru xurma və yarıqurudulmuş xurma məhsuluna görə hər biri 2 qızıl medalla təltif olunmuşdur. Bundan başqa, "Azərstar" şirkəri fındıq nüvəsi və fındıq ununa, Babək "Sirab" ASC təbii və müalicəvi suya görə qızıl medal almışdır.

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu isə "Prodexpo 2018" Beynəlxalq Ərzaq Sərgisinə göstərdiyi dəstəyə görə mükafata layiq görülmüşdür.

Qeyd edək ki, bu sərgidə Azərbaycanın 27 şirkətinin istehsal etdiyi məhsullar nümayiş olunmuşdur. Sərgi zamanı vahid ölkə stendinin təşkili xərcləri dövlət büdcəsi hesabına ödənilmişdir.






# Azərbaycan məhsulları “Gulfood 2018” Beynəlxalq Ərzaq Sərgisində təmsil olunmuşdur

Fevralın 18-dən 22-dək Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən “Gulfood 2018” Beynəlxalq Ərzaq Sərgisində Azərbaycan “Made in Azerbaijan” vahid ölkə stendi ilə təmsil olunmuşdur. Dubayın Beynəlxalq Ticarət Mərkəzində təşkil olunan sərgidə 120 ölkədən 5 mindən çox şirkət öz məhsullarını təqdim etmişdir. İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə sərginin Azərbaycana aid pavillionunda 23 Azərbaycan şirkəti meyvə şirələri, təbii mineral sular, fındıq, qənnadı məmulatları, çay, quru meyvə və s. məhsullarını sərgi ziyarətçilərinə təqdim etmişdir.

Hər il 95 min insanın ziyarət etdiyi sərgidə Azərbaycanın “Made in Azerbaijan” vahid ölkə stendində nümayiş olunan məhsullar ziyarətçilər və tədbirdə iştirak edən xarici şirkətlər tərəfindən maraqla qarşılanmışdır. Sərgi çərçivəsində Azərbaycan istehsalı olan mineral suların, şirniyyat, süd və konserv məhsullarının, nar şərabın, qurudulmuş xurma, fındıq və şokolad məhsullarının BƏƏ-yə, Küveytə, İtaliyaya, Pakistana, Türkmənistana, Almaniyaya, Səudiyyə Ərəbistanına, Avstraliyaya ixracına dair, habelə xarici iri market şəbəkələrinə, otellərə satışına dair danışıqlar aparılmışdır. Bundan başqa, sərgidə iştirak edən xarici şirkətlər Azərbaycan şirkətlərinin Dubayda, İranda, Küveyt və Bəhreyndə distributor mərkəzlərinin yaradılmasına maraq göstərmişlər.

“Gulfood 2018” Beynəlxalq Ərzaq Sərgisində Azərbaycanın “Azhazelnut” şirkəti ilə Birləşmiş Ərəb Əmirliklərindən olan şirkət arasında 40 ton fındıq ləpəsinin ixracına dair müqavilə imzalanmışdır.









# İİTKM –də “Digital Marketinq” mövzusunda təlim keçirilmişdir




İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzinin təşkilatçılığı ilə “Digital Marketinq” mövzusunda təlim keçirilmişdir. Təlimdə əsasən Azərbaycan sahibkarlarının öz məhsullarını xarici bazarlarda tanıdılması istiqamətində atmalı olduğu addımlar barədə danışılmışdır. UNEC Digital Marketinq Mərkəzinin direktoru Ramil Cabbarovun apardığı təlimdə iştirakçılara rəqəmsal marketinq, ənənəvi marketinq (strategiya və yeni imkanlar), rəqəmsal marketinqdə effektivliyin ölçülməsi, remarketinq (Sosial Media Reklamları, Display Advertising), Axtarış Motoru Optimizasiyası (SEO) və Axtarış Motoru Marketinqi (SEM), (Google AdWords), marketinqdə ölçmə hesabatları ilə bağlı yeni məlumatlar təqdim edilmişdir.

“Bir pəncərə” İxraca Dəstək Mərkəzinin meneceri Nicat Hacızadə bildirmişdir ki, ixrac missiyalarının daha səmərəli yollarla aparılması, beynəlxalq bazarların tapılması istiqamətində müzakirələr gələcəkdə də intensiv olaraq təşkil ediləcək. “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi sahibkarların fəaliyyətini praktiki dəstəkləməklə bərabər onların maarifləndirilməsinə və xarici ticarət əməliyyatlarının daha effektli olmasına dəstək göstərir. Sahibkarlıq subyektlərinin intellektual düşüncə tərzinin və idarəetmə bacarıqlarının formalaşdırlması baxımından bu təlimin rolu böyükdür”.

UNEC Digital Marketinq Mərkəzinin direktoru Ramil Cabbarov əlavə etmişdir ki, təlimdə əsas məqsəd xüsusən, ixrac həyata keçirən sahibkarlar üçün digital marketinqin əhəmiyyətini göstərməkdir: “Digital marketinq vasitəsilə xarici bazarların araşdırılması, istehlakçı davranışlarının tədqiqi, effektiv reklam kampaniyalarının hazırlanması və hesabatlar üzərində iş kimi strateji addımlar göstərilmişdir. Təlim bu istiqamətdə təməl prinsipləri özündə əks etdirsə də, daha dərinləşdirilmiş biliklərin qazanılması üçün davamlı seminarlar təşkil ediləcəkdir. Hesab edirik ki, təlimdən qazanılmış biliklərlə artıq bir sıra xərclərə qənaət etməklə digital marketinq vasitəsilə daha operativ və effektiv nəticələrə çatmaq mümkün olacaq.”

Qeyd edək ki, “Digital Marketinq” mövzusunda təlimə 40-dan artıq yerli şirkətin nümayəndəsi qatılmışdır.







# “Bir Pəncərə” İxraca Dəstək Mərkəzinə müraciət edən sahibkarlar sertifikatlarla təmin olunmuşdur

2018-ci ilin fevral ayında “Bir Pəncərə” İxraca Dəstək Mərkəzinə müraciət edən sahibkarların sayında ciddi artım müşahidə olunmuşdur.

Azərbaycan sahibkarları “Bir Pəncərə” İxraca Dəstək Mərkəzinə müraciət etməklə, həm ixrac prosedurları barədə müvafiq məlumat, həm də ixrac üçün ehtiyac olan sertifikat və icazələri almışlar. Cari ilin fevral ayında “Bir Pəncərə” İxraca Dəstək Mərkəzinə müraciət edən sahibkarlar sintetik saplardan hazırlanan pərdələrin, polad boruların, qurğuşun külçələrin, xurmanın, jurnalların, dondurulmuş toyuq ayaqlarının, ehtiyat hissələrin, atın, metal konstruksiya üçün lövhələrin, klapanların, fiziki və kimyəvi analizlər üçün aparatın, polad armatur yaymanın, polad tökmələrin, butulkalar üçün qapaqların, polad kvadrat pəstahların, buğda kəpəyin, qiymətli metal külçələrin, neft qazma avadanlığın hissəsini, ördək və dovşan ətinin, soyuducunun və s. məhsulların ixracı üçün lazım olan müvafiq sənədləri əldə etmişlər. Bu məhsullar əsasən Türkiyə Cumhuriyyətinə, Qazaxıstana, Litvaya,Birləşmiş Ərəb Əmirliklərinə, Rusiya Federasiyasına, Çin Xalq Respublikasına, Səudiyyə Ərəbistanına, ABŞ-a, Gürcüstana, Böyük Britaniyaya, Avstriyaya, İran İslam Respublikasına, İsveçrəyə, Ukraynaya, Küveytə və digər ölkələrə ixrac olnmuşdur.








# Kənd Təsərrüfatı Nazirliyi dünya bazarlarına soğan ixracı ilə bağlı araşdırma aparmışdır

Kənd Təsərrüfatı Nazirliyinın icmallaşdırma və statistik təhlil şöbəsi tərəfindən Azərbaycandan soğan ixracı imkanları ilə bağlı araşdırma aparılmışdır. Araşdırmada göstərilir ki, FAO-nun məlumatına əsasən 148 ölkədə hər il 110 milyon tondan çox soğan istehsal edilir. Son 15 il ərzində dünya üzrə soğan idxalının həcmi natural ifadədə 2 dəfə, dəyər ifadəsində isə 3 dəfə artmışdır. Azərbaycanda 2016-cı ildə 178 min ton baş soğan istehsal edilmişdir. Baş soğanın məhsuldarlığı 15 ton / ha təşkil edir.

Araşdırmada göstərilir ki, Azərbaycandan soğan ixracı təcrübəsi hər il kiçik həcmdə faraş məhsul ixracı ilə xarakterizə olunurdu. Lakin 2017-ci ildən etibarən ölkəmizdən soğan ixracı kəskin şəkildə artaraq tarixi rekord həcmdə olmuşdur.

Soğan ixracı 2017-ci ildə 15.7 milyon ABŞ dolları təşkil etmişdir və əvvəlki illə müqayisədə 16 dəfə artmışdır. Ötən il soğan ixracının 63 faizindən çoxu Rusiyanın payına düşmüşdür. Mövcud dünya bazar qiymətləri kontekstində Azərbaycandan soğan ixracı, xüsusilə devalvasiyadan sonra, çox perspektivli görünür. Hazırda yerli bazarda 1 ton baş soğan topdansatış bazarda təqribən 160 ABŞ dollarına (0.27 AZN/kq) təklif olunur. Azərbaycandan region dövlətlərinə soğan ixracını artırmaq üçün potensial bazar tələbatı mövcuddur.

2016-cı ildə Azərbaycandan soğanın orta ixrac qiyməti 310 dollar/ton olmuşdur. Potensial ixrac bazarlarında soğanın idxal qiyməti bu bazarlara çıxış imkanlarımızı artıran daha bir faktordur. Belə ki, 2016-cı ildə Rusiyada soğanın 1 tonun idxal qiyməti 408, Səudiyyə Ərəbistanında isə 420 ABŞ dolları olmuşdur.

## Azərbaycan üçün soğan üzrə potensial ixrac bazarları

| İdxalatçı ölkələr | İdxalın həcmi, min ton | İdxalın həcmi, milyon dollar |
|---|---|---|
| **Dünya üzrə cəmi** | **7690.8** | **3293.1** |
| Səudiyyə Ərəbistanı | 356.1 | 149.6 |
| Rusiya | 137.7 | 56.1 |
| Küveyt | 109.2 | 39.8 |
| Oman | 70.6 | 20.8 |
| Qətər | 84.4 | 24.3 |
| Qazaxıstan | 127.1 | 14.4 |
| Bəhreyn | 36.9 | 11.5 |
| Gürcüstan | 20.5 | 8.8 |

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən "İxrac İcmalı" jurnalı 11 yanvar 2018-ci il tarixində N4160 nömrəsi ilə mətbu nəşrlərin reystrinə daxil edilmişdir.

iqtisadiislahat.org
ereforms.org
ecoreform.az



/iqtisadiislahat

Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073
Tel.: (+ 994) 12 521 33 18
info@ereforms.org